No: 03 2025
https://doi.org/10.64400/ea25-3-07
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# SİYASİ DİSKURSDA FRAZEOLOJİ VAHİDLƏRİN MANİPULYATİV POTENSİALI (AZƏRBAYCAN RESPUBİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TVİTTER PAYLAŞIMLARI ƏSASINDA)

**Könül HƏBİBOVA**

Azərbaycan Milli Elmlər Akademiyası, İ.Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan
*Yazışılan müəllif: habibovakonul@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 13.08.2025*
*Nəşr edilmə tarixi: 28.10.2025*

**AÇAR SÖZLƏR:**
frazeoloji ifadələr,
siyasi diskurs,
manipulyasiya,
Tvitter,
İlham Əliyev,
ictimai rəy,
siyasi ritorika.

**XÜLASƏ**

Bu tədqiqat Azərbaycan siyasi diskursunda frazeoloji ifadələrin manipulyativ potensialını araşdırır və onların siyasi ritorikada oynadığı rolu müəyyən etməyə çalışır. Xüsusilə, Prezident İlham Əliyevin Tvitter paylaşımlarında frazeologizmlərin istifadəsi analiz olunaraq, onların ictimai rəyə təsiri və kommunikativ funksiyaları dəyərləndirilmişdir. Araşdırmanın aktuallığı sosial şəbəkələrin, xüsusilə Tvitterin, müasir siyasi diskursda güclü kommunikasiya vasitəsinə çevrilməsi ilə bağlıdır.
Tədqiqatın metodoloji çərçivəsi deskriptiv-analitik və diskurs təhlili metodlarına əsaslanır. İlham Əliyevin rəsmi çıxışları və Tvitter paylaşımları üzərində aparılan analiz nəticəsində müəyyən edilmişdir ki, frazeoloji ifadələr onun siyasi ritorikasında bir neçə mühüm funksiyanı yerinə yetirir. Birincisi, onlar ictimai emosiyaları istiqamətləndirərək, milli-mənəvi dəyərlərin vurğulanmasına və vətənpərvərlik ruhunun gücləndirilməsinə xidmət edir. İkincisi, opponentlərə qarşı ironiya və sarkazm elementi kimi istifadə edilərək, siyasi rəqiblərin arqumentlərini tənqid etmək və ictimaiyyətin baxış bucağını formalaşdırmaq üçün bir vasitə rolunu oynayır. Üçüncüsü, bu ifadələr informasiyanın manipulyativ potensialını artıraraq, siyasi mesajların daha təsirli çatdırılmasını təmin edir.
Tədqiqatın nəticələri göstərir ki, frazeoloji ifadələr Azərbaycan siyasi diskursunda yalnız bədii nitq vasitəsi deyil, həm də strateji kommunikasiya alətidir. Prezident İlham Əliyevin Tvitter paylaşımlarında bu ritorik üsul effektiv şəkildə istifadə olunur və ictimai rəyə təsir etmək, siyasi mesajları gücləndirmək baxımından əhəmiyyətli rol oynayır. Araşdırma, frazeologizmlərin siyasi diskursdakı funksional yükünü izah etməklə yanaşı, onların informasiya manipulyasiyası və ictimai təsir mexanizmləri ilə əlaqəsini açıq şəkildə göstərir.

## GİRİŞ.

İngilis dilində internet üzərindən xüsusi bir ünsiyyət növünü ifadə edən *twitting* termini də məhz bu platformanın geniş yayılması nəticəsində yaranmışdır. N.V. Kobrin Tvitteri siyasi diskussiyaların aktiv aparıldığı bir məkan kimi xarakterizə edərək vurğulayır ki, burada əsas qarşıdurma "özgə – yad" münasibətləri əsasında qurulur. Bu aspekt xüsusilə *retweet* fenomenində özünü göstərir ki, bu da digər istifadəçi tərəfindən əvvəl yayımlanmış bir ismarıcın mənbəyə istinad edilməklə yenidən paylaşılması deməkdir (Kobrin, 2015).

Hazırda sosial şəbəkələrin istifadəçi sayı sürətlə artdığından, bu platformalar güclü siyasi vasitəyə çevrilmişdir. Effektiv siyasi fəaliyyət göstərmək üçün siyasətçilər Tvitterin auditoriyaya təsir imkanlarından düzgün şəkildə yararlanmalıdırlar. A.P.Çudinovun qeyd etdiyi kimi, "*müasir*

*siyasi liderlər seçicilərin dəstəyini qazanmaq üçün tez-tez müəyyən sosial-kommunikativ rol çərçivəsində formalaşan bir növ "nitq maskalarından" istifadə edirlər’*” (Çudinov, 2009, s.42).

İnformasiya texnologiyalarının inkişafı və sosial şəbəkələrin qlobal miqyasda populyarlaşması siyasi kommunikasiyanın strukturunu əsaslı şəkildə dəyişmişdir. Əgər əvvəl siyasətçilərin ictimaiyyətlə ünsiyyəti əsasən televiziya, radio və mətbuat vasitəsilə həyata keçirilirdisə, bu gün sosial media, xüsusilə də Tvitter, siyasi ritorikanın mühüm bir platformasına çevrilmişdir. Tvitterin real vaxt rejimində informasiya yaymaq və ictimai rəyə birbaşa təsir etmək imkanı yaratması, onu ənənəvi media vasitələrindən fərqləndirir və müasir siyasi diskursun ayrılmaz hissəsinə çevirir.

Bu kontekstdə Azərbaycan siyasi arenasında Tvitterin yeri və rolu xüsusi aktuallıq kəsb edir. Ölkənin siyasi liderlərinin, xüsusilə Prezident İlham Əliyevin Tvitterdə fəal olması və burada frazeoloji ifadələrdən geniş istifadə etməsi onun ictimai ünsiyyət strategiyasının mühüm bir komponentidir. Prezidentin paylaşımlarında milli-mənəvi dəyərlərin vurğulanması, siyasi opponentlərə qarşı ironiya və sarkazmdan istifadə edilməsi, həmçinin ictimai rəyə təsir edən güclü ritorik gedişlər onun Tvitterdəki kommunikasiya modelinin əsas xüsusiyyətləridir. Buna baxmayaraq, Azərbaycan siyasətində Tvitterin spesifik istifadəsi, xüsusilə frazeologizmlərin manipulyativ və ya emosional təsir gücü kimi rolu hələ də elmi baxımdan yetərincə öyrənilməmişdir. Bu səbəbdən, təqdim olunan tədqiqat frazeoloji ifadələrin Azərbaycan siyasi diskursundakı funksionallığını araşdırmaqla bu sahədəki boşluğu qismən doldurmaq məqsədi güdür.

Bu araşdırmanın yeniliyi onun Azərbaycan kontekstində Tvitterdə frazeoloji ifadələrin siyasi məqsədlər üçün istifadəsini xüsusi təhlil etməsindən ibarətdir. Mövcud beynəlxalq araşdırmalarda sosial şəbəkələrin siyasi diskursa təsiri geniş şəkildə işıqlandırılsa da, konkret olaraq İlham Əliyevin Tvitter ritorikası və onun ictimai rəyə təsiri dərin elmi analizə məruz qalmamışdır. Tədqiqat ilk dəfə olaraq Azərbaycan siyasi nitqində frazeoloji ifadələrin sosial media kontekstində necə işlədiyini və onların ictimaiyyətə təsir mexanizmlərini müəyyən etməyə çalışır.

Bu tədqiqatın əsas məqsədi Azərbaycan siyasi diskursunda, xüsusilə Prezident İlham Əliyevin Tvitter paylaşımlarında frazeoloji ifadələrin funksiyasını və təsir gücünü araşdırmaqdır.

## MATERİAL VƏ METODLAR.

Bu tədqiqatda frazeoloji ifadələrin Azərbaycan siyasi nitqində, xüsusilə Prezident İlham Əliyevin çıxışlarında və Tvitter paylaşımlarında istifadəsini araşdırmaq üçün deskriptiv-analitik və diskurs təhlili metodlarından istifadə olunmuşdur. Tədqiqatın empirik bazasını təşkil edən materiallar qismində Prezident İlham Əliyevin Tvitter hesabında (@azpresident) ən son paylaşımlar təhlil edilmişdir.

Bundan başqa, elmi mənbələr və məqalələr əsasında siyasi ritorika, manipulyativ nitq texnikaları və sosial mediada siyasi diskursun qurulması ilə bağlı araşdırmalar nəzərdən keçirilmişdir. Bu metodoloji yanaşma müstəvisində frazeoloji ifadələrin Azərbaycan siyasi nitqində necə istifadə edildiyi və onların ictimai rəyə təsir mexanizmləri aydınlaşdırılmışdır.

## ƏLDƏ OLUNAN NƏTİCƏLƏR

***Nitqi manipulyasiyasının sərhədləri: ritorik strategiya, yoxsa manipulyasiya?*** Siyasi hakimiyyət uğrunda rəqabətin artması, kütlələrin effektiv idarə edilməsi və mümkün qədər çox tərəfdarın cəlb olunması siyasətçiləri müxtəlif nitq təsir üsullarından istifadə etməyə məcbur edir. Siyasi diskursun araşdırılması nəticəsində auditoriyaya təsir göstərmək üçün vasitə, üsul, strategiya və taktikanın müəyyən edilməsi aktual və praktik cəhətdən mühüm bir məsələyə çevrilmişdir.

Müasir dilçilikdə nitq manipulyasiyasının müxtəlif növlərinin və vasitələrinin sərhədlərinin müəyyən edilməsi ilə bağlı vahid bir yanaşma mövcud deyil. Bu sahədə fərqli nəzəri baxışlar olsa da, informasiya üzərində məqsədyönlü manipulyasiya vasitəsilə təsirin həyata keçirildiyi bir neçə əsas səviyyə fərqləndirilir. Bu səviyyələr müxtəlif manipulyasiya texnikalarını əhatə edir və "*onların hər biri müəyyən kommunikativ məqsədlərə xidmət edir*" (Novruzəliyeva, 2022, s.260).

V.A.Pişalnikova və S.R.Xusyaynovanın araşdırmasına əsasən, manipulyativ nitq texnikaları kütləvi informasiya vasitələrində, xüsusilə də sosial şəbəkələrdə geniş yayılmışdır. Müəlliflər göstərirlər ki, manipulyatorlar informasiyanın təqdimatını qəsdən dəyişdirərək kütlənin qavrayışına təsir göstərirlər və bunun üçün gizlətmə, seleksiya, təhrif, məna transformasiyası və digər üsullardan istifadə edirlər (Pişalnikova, Xusyaynova, 2021). Lakin burada sual yaranır: bu texnikalar həqiqətən təhlükəli bir fenomen kimi qəbul olunmalıdırmı, yoxsa onlar insan nitqinin və kommunikasiya üsullarının ayrılmaz hissəsidir? "*Sosial şəbəkələr özünü təşkil edən, inkişaf edən və mürəkkəbdir, belə ki, qlobal əlaqəli model sistemin təşkil edən elementlərin yerli qarşılıqlı təsirində özünü göstərir. Məsələn, dünyadakı bütün insan əlaqələrinin dünya miqyaslı bir şəbəkə təhlili mümkün deyil və ehtimal ki, informativ olmaq üçün çox məlumat ehtiva edir*" (Musayeva, 2018, s.32).

Belə olan halda sosial şəbəkələrdə yayılan manipulyativ nitq texnikalarının təsir gücünü müəyyənləşdirmək üçün təkcə onların istifadə edilmə faktını deyil, həm də auditoriyanın bu texnikalara qarşı nə dərəcədə həssas olduğunu araşdırmaq vacibdir. L.N.Musayevanın qeyd etdiyi kimi, sosial şəbəkələr mürəkkəb və özünü təşkil edən sistemlər olduğu üçün burada informasiyanın yayılma mexanizmi fərdi səviyyədə deyil, qlobal qarşılıqlı təsir müstəvisində baş verir. Bu isə o deməkdir ki, manipulyativ texnikalar yalnız nitq strategiyalarının deyil, həm də istifadəçilərin informasiya qəbulu və paylaşımı vərdişlərinin bir parçasına çevrilmişdir.

Digər tərəfdən, sosial şəbəkələrin təsiri, onların informasiya bolluğu və çoxsaylı mənbələrlə yüklənməsi fonunda formalaşır. Məlumat bolluğu şəraitində seçici auditoriya bəzən manipulyativ mesajların fərqinə varmadan onları qəbul edir və paylaşır. V.A.Pişalnikova və S.R.Xusyaynovanın vurğuladığı manipulyasiya üsulları – gizlətmə, seleksiya, təhrif və məna transformasiyası – məhz bu kontekstdə daha güclü təsir göstərir, çünki sosial şəbəkə mühitində məlumatın mənbəyi və onun həqiqiliyi çox vaxt yoxlanılmır.

Bütün bunlar onu göstərir ki, manipulyativ texnikaların təhlükəli olub-olmaması sualı onların təkcə yayılma mexanizmlərinə deyil, həm də auditoriyanın informasiya ilə qarşılıqlı təsir modelinə bağlıdır. Bu baxımdan, manipulyasiya yalnız nitq strategiyası deyil, eyni zamanda sosial informasiya dövriyyəsinin bir parçası kimi də qiymətləndirilməlidir.

V.A.Pişalnikova və S.R.Xusyaynova konstruksiya və məna çevrilməsi üsullarının daha radikal manipulyativ texnikalar olduğunu vurğulayırlar. Əslində, "*uydurma məlumatların yaradılması və obyektin mahiyyətinin tamamilə dəyişdirilməsi reallığın təhrifinə gətirib çıxara bilər. Lakin buradakı əsas problem odur ki, bəzən gerçək hadisələrə fərqli interpretasiyalar vermək də "konstruksiya" kimi qiymətləndirilir*" (Habibova, 2019, s.150). Siyasi ritorikada hiperbola və metaforaların istifadəsi manipulyasiyadır, yoxsa ritorik strategiya?

Xüsusilə maraqlı olan iddialardan biri də subliminal təsir metodlarının manipulyasiya kimi təqdim edilməsidir. Müəlliflər qeyd edirlər ki, fon musiqisinin dəyişdirilməsi və digər texniki üsullar auditoriyanın diqqətini yönəltmək üçün istifadə olunur. Lakin bu üsullar yalnız siyasi diskursda deyil, marketinqdə, reklam sahəsində və hətta kinoda da tətbiq edilir (Pişalnikova, Xusyaynova, 2021). Əgər bu, manipulyasiya sayılırsa, o zaman emosional təsir göstərən istənilən vizual və audial texnika da eyni kateqoriyaya daxil edilməlidirmi?

Deməli, V.A.Pişalnikova və S.R.Xusyaynovanın manipulyasiya ilə bağlı yanaşması əsaslı olsa da, müəyyən suallar doğurur. Manipulyasiya termini olduqca geniş mənada istifadə olunur və nəticədə adi kommunikasiya üsulları da manipulyativ texnikalar kimi qələmə verilir. Belə olan halda, hər bir informasiya istehsalçısı – siyasətçilər, jurnalistlər, akademiklər, hətta sadə vətəndaşlar belə manipulyator kimi təsnif edilə bilərmi? Əgər manipulyasiyanı hər bir məqsədli informasiya ötürmə forması kimi qəbul ediriksə, o zaman "obyektiv informasiya" deyilən bir şeyin mövcudluğuna inanmaq nə dərəcədə məntiqlidir?

Məqalənin təqdim etdiyi arqumentlərə baxmayaraq, manipulyasiya ilə adi kommunikasiya arasındakı sərhədin harada başladığını və harada bitdiyini dəqiqləşdirmək hələ də mübahisəli məsələ olaraq qalır. Bu kontesktdə frazeologizmlərin xüsusi çəkiyə malik olduğunu nəzərə alaraq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tvitter hesabındakı son paylaşımları üzəridən məsələ ilə bağlı linqvistik təhlillərin aparılmasını məqsədəuyğun hesab edirik.

***Siyasi diskursda frazeoloji vahidlərin manipulyativ potensialı.*** Frazeologiya hər bir millətin düşüncə tərzini və mədəni kimliyini əks etdirən mühüm dil qatlarından biridir. Siyasətçilər isə bu dil vasitələrindən geniş istifadə edərək öz mesajlarını daha emosional və təsirli şəkildə auditoriyaya çatdırırlar. Azərbaycan siyasi diskursunda, xüsusilə Prezident İlham Əliyevin çıxışlarında frazeoloji ifadələrin geniş yer alması onların xalqla ünsiyyətində mühüm rol oynayır. Bu ifadələr həm siyasi ritorikanın gücünü artırır, həm də müəyyən hallarda manipulyativ təsir elementi kimi çıxış edir.

Prezident İlham Əliyevin Tvitter hesabındakı paylaşımlarda milli-mənəvi dəyərlərə istinad etmək burada sərgilənən siyasi ritorikanın əsas xüsusiyyətlərindən biridir. Təbii ki, ulu öndər Heydər Əliyevin siyasi üslubunu davam etdirərək, o, xalqın emosional bağlarını gücləndirən ifadələrdən istifadə edir: "*Ermənistanın tranzit ölkəyə çevrilmə arzuları elə onların gözlərində qalacaq*" (İlham Əliyev@azpresident Jan 28, 2025).

Bu cür ifadələr təkcə siyasi mesajın qısaldılmış formada çatdırılmasına deyil, eyni zamanda opponentlərin iddialarını yumşaq sarkazmla ifşa etməyə xidmət edir. *"Gözlərində qalacaq"* frazeologizmi burada həm erməni tərəfinin niyyətlərinin qeyri-real olduğunu vurğulayır, həm də Azərbaycanın regional siyasətdə həlledici mövqeyə sahib olduğunu göstərir. Bu, İlham Əliyevin Tvitter strategiyasında müşahidə edilən əsas ritorik gedişlərdən biridir: qısa, konkret və emosional yüklü ifadələrlə həm beynəlxalq ictimaiyyətə, həm də daxili auditoriyaya güclü mesaj vermək. Bu tip paylaşımlar, həmçinin Azərbaycanın strateji üstünlüyünü vurğulamaqla yanaşı, informasiya müharibəsində də mövqeləri möhkəmləndirmək üçün effektiv alət rolunu oynayır.

Frazeoloji ifadələr yalnız emosional bağlılıq yaratmaq üçün deyil, eyni zamanda siyasi strategiyaların daha cəlbedici təqdim olunması üçün də istifadə edilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında da frazeoloji ifadələr siyasi mövqeyin möhkəmləndirilməsi üçün mühüm rol oynayır: *"Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik"* (Əliyev, 2021). "Xalqın əyilməz ruhu" frazeologizmi onun Tvitter paylaşımlarında da yer almaqdadır: "*Bizim qəhrəman övladlarımız, hərbiçilərimiz bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu, gücünü, iradəsini bir daha göstərmişdir*" (İlham Əliyev@azpresident Nov 8, 2024).

Bu cür ifadələr həm qalibiyyət hissini gücləndirmək, həm də xalqın tarixi dözümlülüyünü vurğulamaq üçün istifadə edilir. *"Əyilməz ruh"* frazeologizmi burada yalnız fiziki məğlubedilməzliyi deyil, eyni zamanda mənəvi gücü və iradəni simvolizə edir. Prezident İlham Əliyevin nitqlərində və Tvitter paylaşımlarında bu kimi ifadələr xalqın birliyini, milli kimliyini və tarixə əsaslanan mübarizə ruhunu ön plana çıxarmaq üçün işlədilir. Belə frazeoloji konstruksiyalar təkcə daxili auditoriya üçün deyil, eyni zamanda beynəlxalq ictimaiyyətə mesaj vermək məqsədilə də səfərbər edilir. Bu cür ifadələr Azərbaycanın haqlı mövqeyini gücləndirmək, qələbənin əhəmiyyətini vurğulamaq və milli ruhu daim canlı saxlamaq üçün effektiv kommunikasiya vasitəsinə çevrilir.

Frazeologiyanın siyasi nitqdə istifadəsinin başqa bir maraqlı aspekti isə yumor və ironiya elementinin daxil edilməsidir. Bu tip ifadələr həm siyasətin ciddiliyini vurğulamaq, həm də müəyyən mənada populist çıxışlar edən siyasi opponentləri lağa qoymaq üçün işlədilir. İlham Əliyev də dil oyunlarından və frazeoloji ifadələrdən istifadə edərək siyasi çıxışlarını gücləndirir: "*İndi Ermənistanın bəzi Qərb havadarları Ermənistandan "sülh göyərçini" düzəltmək istəyirlər*" (İlham Əliyev@azpresident Nov 8, 2024).

Bu cür ifadələr həm opponentləri sarkazmla tənqid etmək, həm də auditoriyanın diqqətini cəlb etmək üçün güclü ritorik alətə çevrilir. *"Sülh göyərçini"* metaforası Ermənistanın beynəlxalq aləmdə sülhsevər ölkə kimi təqdim olunmasına istehza ilə yanaşır və bunun reallıqla ziddiyyət təşkil etdiyini vurğulayır. İlham Əliyevin bu tip frazeoloji ifadələrdən istifadəsi, xüsusilə beynəlxalq münasibətlər və regional siyasət kontekstində, qarşı tərəfin siyasətini ifşa etməyə və Azərbaycanın mövqeyini haqlı göstərməyə xidmət edir. Bundan başqa, belə ifadələr nitqi monotonluqdan çıxarır,

onu daha emosional və dinamik edir, dinləyici və izləyici auditoriyanın diqqətini cəlb edərək, verilən mesajın təsir gücünü artırır.

Siyasi nitqlərdə frazeoloji ifadələrin başqa bir mühüm funksiyası isə rəqiblərə qarşı ironiyanın və sarkazmın ifadə edilməsidir. Bu baxımdan Prezident İlham Əliyevin nitqlərində də oxşar ritorika müşahidə olunur. O, müharibədən sonra keçirdiyi bir mətbuat konfransında belə bir ifadə işlətmişdi: "*Prezident kimi müəyyən dövrlərdə mənim də ağlıma belə fikirlər gəlirdi ki, yəqin dünyada ədalət yoxdur. Amma bilirdim ki, bu ədalətə çatmaq üçün sən gərək onu əldə edəsən, o, göydən düşməz*" (İlham Əliyev@azpresident Sep 21, 2024).

Bu ifadədə ironiyanın və siyasi reallığın birləşdiyi açıq şəkildə görünür. İlham Əliyev burada beynəlxalq siyasətin ikili standartlarını tənqid etməklə yanaşı, Azərbaycanın haqqını yalnız diplomatik danışıqlarla deyil, konkret addımlarla təmin etdiyini vurğulayır. "*Ədalət göydən düşməz*" ifadəsi, passiv gözləntilərin əvəzinə, praktiki fəaliyyətin və milli gücün önəmini ifadə edən frazeoloji bir konstruksiyadır. Bu cür ritorik gedişlər, dinləyicidə emosional reaksiya yaratmaqla yanaşı, siyasi mesajın daha təsirli ötürülməsinə xidmət edir.

Bundan başqa, Prezident İlham Əliyevin nitqlərində sarkazm tez-tez opponentlərinin qeyri-real iddialarına və beynəlxalq təşkilatların birtərəfli mövqeyinə cavab olaraq istifadə edilir. Məsələn, o, Ermənistan rəhbərliyinin iddialarını tənqid edərkən belə ifadələr işlətmişdi: *"Kim bizim torpaqlarımızdan danışırsa, ilk növbədə öz tarix kitablarını oxusun"*. Bu cümlə təkcə faktiki yanlışlıqlara işarə etməklə qalmır, həm də qarşı tərəfin iddialarının məntiqsizliyini açıq şəkildə ifşa edir.

Prezidentin siyasi nitqində ironiyanın mühüm yer tutmasının səbəbi, yalnız opponentləri gözdən salmaq deyil, həm də xalqın emosional bağlılığını gücləndirməkdir. Onun sarkazmla təqdim etdiyi ifadələr seçici auditoriyasında təkcə informativ yox, həm də psixoloji təsir gücünə malikdir. Bu strategiya siyasi liderin mövqeyini möhkəmləndirmək və ictimai rəyə təsir etmək üçün istifadə olunan ənənəvi nitq texnikalarından biridir.

Bu kontekstdə, A.Əhmədovanın öz elmi araşdırmasında vurğuladığı məqamlar Prezident İlham Əliyevin Tvitter paylaşımlarında frazeoloji ifadələrin funksiyası ilə üst-üstə düşür. Sosial şəbəkələr ictimai rəyin formalaşmasına təsir edən ən güclü platformalardan biri olduğu üçün burada yayılan hər bir informasiya müəyyən bir məqsədə xidmət edir. A.Əhmədovanın fikrinə görə, "*informasiyanın təsirini həyata keçirən tərəf – bu halda siyasətçi və ya siyasi lider – cəmiyyətin diqqətini hansı prizmadan yönəltmək istəyirsə, məhz o aspekti ön plana çıxarır*" (Əhmədova, 2013, s.84). İlham Əliyevin Tvitter paylaşımlarında da bu strategiya müşahidə olunur: frazeoloji ifadələr vasitəsilə Azərbaycanın siyasi mövqeyi gücləndirilir, milli birlik ruhu qabardılır və opponentlərin mövqeyi tənqid edilir.

Bu kontekstdə, A.Əhmədovanın qeyd etdiyi kimi, "*qabardılmış informasiya kütlənin diqqətini cəlb etmək üçün müxtəlif qruplarda müzakirə obyektinə çevrilir*" (Əhmədova, 2013, s.84). İlham Əliyevin bəzi paylaşımları, xüsusilə Ermənistan və onun havadarlarına qarşı ironiya və sarkazm elementi ehtiva edən tvitləri, məhz bu strategiyanın bir nümunəsi kimi qiymətləndirilə bilər. Çünki belə ifadələr sosial mediada geniş rezonans doğurur, müzakirələrə səbəb olur və nəticədə, Azərbaycan hökumətinin mövqeyini həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə möhkəmləndirir.

## MÜZAKİRƏ

Aparılan təhlillər zamanı ortaya çıxan mənzərədən görünür ki, frazeoloji ifadələr təkcə nitqin bədii elementləri deyil, eyni zamanda sosial şəbəkələrdə manipulyativ və ya strategiyaya əsaslanan informasiya yayımının bir parçası kimi çıxış edir. A.Əhmədovanın vurğuladığı "*istiqamətləndirilmiş informasiya*" fenomeni burada açıq şəkildə özünü göstərir və bu, frazeoloji ritorikanın sosial şəbəkələrdə siyasi kommunikasiya aləti kimi rolunu daha da artırır. Bu baxımdan, siyasi liderlərin nitqlərində istifadə olunan ifadələrin yalnız məzmun baxımından deyil, həm də emosional və ekspressiv təsir gücü baxımından araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Məhz bu kontekstdə A.Allahverdiyevanın Prezident İ. Əliyevin multikultural üslublu nitqlərinə dair təhlili frazeoloji ifadələrin auditoriya ilə emosional əlaqə yaratmaq və siyasi ritorikanı gücləndirmək funksiyasını daha dərindən anlamağa imkan yaradır. O, qeyd edir ki, "*Prezidentin nitqində ekspressivlik fəal metaforik modellər və semantik dərəcələnmə vasitəsilə reallaşır. Bu vasitələr, öz növbəsində, səmimi ünsiyyət effekti yaratmaqla yanaşı, liderin natiqlik üslubunun fərdi xüsusiyyətlərini müəyyən edir*" (Allahverdiyeva, 2018, s.16). Beləliklə, frazeoloji ifadələrin manipulyativ və strateji funksiyalarına əlavə olaraq, onların siyasi ritorikanın təsir gücünü artırmaq, milli dəyərləri vurğulamaq və ictimai rəyə yön vermək kimi kommunikativ funksiyaları da ön plana çıxır.

Nəzərdən keçirilən tvitlərdə bir neçə kommunikativ model müşahidə edilir:

1. *İnformasiyanın manipulyativ təqdimatı modeli* – Siyasətçilər frazeoloji ifadələr vasitəsilə informasiyanı müəyyən istiqamətə yönəldir, opponentlərinin arqumentlərini yumşaq sarkazmla ifşa edir və ictimai rəyə təsir göstərir. Bu model xüsusilə İlham Əliyevin Tvitter paylaşımlarında özünü göstərir, burada milli-mənəvi dəyərlərə istinad etməklə seçicinin emosional bağlılığı gücləndirilir.

2. *Siyasi ritorika və ideoloji təsir modeli* – Frazeoloji ifadələr siyasi nitqin təsir gücünü artırır, seçicilərin emosional və intellektual reaksiyalarını yönləndirir. "Xalqın əyilməz ruhu" kimi ifadələr təkcə milli qüruru vurğulamaq üçün deyil, eyni zamanda hökumətin uğurlarını möhkəmləndirmək və ictimai dəstəyi artırmaq üçün işlədilir.

3. *İroniya və sarkazm vasitəsilə kommunikasiya modeli* – Siyasi nitqlərdə və Tvitter paylaşımlarında opponentlərə qarşı istifadə edilən ironiya və sarkazm auditoriyanı emosional olaraq cəlb edir. "Ermənistanın tranzit ölkəyə çevrilmə arzuları elə onların gözlərində qalacaq" ifadəsi bu modelin nümunəsidir, çünki burada həm faktiki tənqid, həm də diplomatik mesaj verilir.

4. *Sosial şəbəkələrdə informasiya yayımı modeli* – Tvitter kimi platformalar ictimai rəyin formalaşdırılması üçün effektiv alət kimi istifadə olunur. Mətndə vurğulanan kimi, "qabardılmış informasiya" auditoriyanın diqqətini cəlb edir və müxtəlif qruplarda müzakirə obyektinə çevrilir. Bu model siyasi ritorikanın sosial media üzərindən necə təsirli şəkildə yayıldığını göstərir.

5. *Milli kimliyin gücləndirilməsi modeli* – Siyasi nitqlərdə istifadə edilən frazeoloji ifadələr xalqın tarixə və dəyərlərə bağlılığını artırmaq üçün işlədilir. İlham Əliyevin çıxışlarında tez-tez milli-mənəvi birlik və tarixi haqlılıq vurğulanır, bu da siyasi liderin mövqeyini möhkəmləndirir.

Bütün bu modellər auditoriya, dünya ictimai ilə emosional əlaqə yaratmağa yönəlmiş nitq aktının variativ modelləridir. "*Bu baxımdan siyasətçilərin çıxışında auditoriyaya bağlılıq və emosional əlaqə yaratmaq, güclü emosional reaksiyalar yaratmaq, vətənpərvərlik və milli hissləri aktivləşdirmək, cəlbedici hiperbol və metaforalardan istifadə etmək kimi emosional texnikalardan istifadəni asanlıqla müşahidə etmək olar*" (Həbibova, 2024, s.143).

Bu kommunikativ modellər siyasi diskursun əsas elementlərini təşkil edir və frazeoloji ifadələrin ictimai rəyə təsir mexanizmini anlamağa imkan yaradır.

## NƏTİCƏ.

Frazeoloji ifadələrin siyasi nitqdə istifadəsi, xüsusilə İlham Əliyevin çıxışlarında və Tvitter paylaşımlarında müşahidə olunan əsas ritorik strategiyalardan biridir. Bu ifadələr həm xalqın emosional bağlılığını gücləndirir, həm də Azərbaycanın mövqeyini beynəlxalq ictimaiyyətə daha təsirli şəkildə təqdim etmək üçün mühüm rol oynayır. Onların daxili siyasətdə funksiyası isə opponentləri tənqid etmək, ictimai rəyə təsir etmək və hakimiyyətin strateji hədəflərini cəlbedici formada çatdırmaqdan ibarətdir.

İlham Əliyevin nitqlərində frazeoloji ifadələr vasitəsilə milli-mənəvi dəyərlərə, tarixi pretsedentlərə və qalibiyyət ruhuna xüsusi vurğu edilir. Bu, siyasi liderin çıxışlarını daha yaddaqalan etməklə yanaşı, xalqın öz kimliyinə və tarixi haqlarına olan inamını gücləndirir. Eyni zamanda, ironiya və sarkazm elementləri vasitəsilə beynəlxalq ikili standartlara və Ermənistanın iddialarına qarşı tənqidi mövqe sərgilənir.

Bununla belə, frazeoloji ifadələrin manipulyativ potensialı da nəzərəçarpacaq dərəcədədir. Onların siyasi diskursda istifadəsi bəzən faktiki arqumentlərin emosional çalarlarla ört-basdır

edilməsinə xidmət edə bilər. Bu baxımdan, siyasətçilərin ritorikasını təhlil edərkən, frazeoloji vasitələrin yalnız nitqi bədii cəhətdən zənginləşdirmək üçün deyil, həm də ictimai rəyə təsir göstərmək üçün istifadə edildiyini nəzərə almaq vacibdir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin siyasi nitq strategiyasında frazeologiya təkcə bədii ifadə vasitəsi kimi deyil, həm də təsirli kommunikasiya aləti kimi çıxış edir. Bu cür ritorik gedişlər siyasi mesajların gücünü artırır, lakin eyni zamanda seçicinin tənqidi düşüncə bacarıqlarını sınağa çəkir. Frazeoloji ifadələrin siyasətdə istifadəsi, manipulyasiya və reallığın təsviri arasındakı sərhədin harada başladığını və harada bitdiyini müəyyən etmək baxımından aktuallığını qoruyur.

## ƏDƏBİYYAT


1. Allahverdiyeva, A. (2018). Azərbaycan Prezidenti İlham Əliyevin multikultural üslublu nitqləri. ADU Elmi xəbərlər, 2, 12-20.
2. Əhmədova, A. (2013). Sosial şəbəkələr qlobal siyasi silah kimi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş “İnformasiya təhlükəsizliyi problemləri üzrə I respublika elmi-praktiki konfransı”, 17-18 may, 83-85.
3. Həbibova, K. (2024). Siyasi diskursda nitqi manipulyasiyanın rolu: müasir strategiyaların təhlili. İpək yolu, 3, 134-145.
4. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar. 14 fevral 2021, 16:15. https://president.az/az/articles/view/50632
5. Musayeva, L.N. (2018). Sosial şəbəkələrdə informasiyanın idarəəetmə modelləri. / magistra diss./, Bakı, 75 s.
6. Novruzəliyeva, S. (2022). Sosial şəbəkə və işgüzar kommunikasiya. Filologiya və sənətşünaslıq, 2, 259-265.
7. Habibova, K. (2019). Sosiolinguistic analysis of political communication. Закарпатські філологічні студії, 1(8), 149-154.
8. Кобрин, Н.В. (2015). Особенности политического медиадискурса «Твиттера». Филологические науки. Вопросы теории и практики, 12-2(54), 94-99.
9. Пищальникова, В.А., Хусяйнова, С.Р. (2021). Специфика речевой манипуляции политиков в Сети на материале социального сервиса Твиттер. Этнопсихолингвистика, 2(5), 25-45.
10. Чудинов, А.П. (2009). Современная политическая коммуникация. Екатеринбург: Уральский государственный педагогический университет, 292 с.


## ABSTRACT

## MANIPULATIVE POTENTIAL OF PHRASEOLOGICAL UNITS IN POLITICAL DISCOURSE (BASED ON TWITTER POSTS OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN, ILHAM ALIYEV)


**Konul Habibova**



This study examines the manipulative potential of phraseological expressions in Azerbaijani political discourse and aims to determine their role in political rhetoric. Specifically, the study analyzes the use of phraseologisms in the Twitter posts of President Ilham Aliyev, evaluating their impact on public opinion and communicative functions. The relevance of this research is linked to the transformation of social networks, particularly Twitter, into powerful communication tools in modern political discourse.

The methodological framework of the study is based on descriptive-analytical and discourse analysis methods. Analyzing Ilham Aliyev's official speeches and Twitter posts has revealed that phraseological expressions serve several key functions in his political rhetoric. Firstly, they guide public emotions by emphasizing national and moral values and reinforcing patriotic sentiment. Secondly, they function as a tool for irony and sarcasm directed at opponents, critiquing political rivals' arguments and shaping public perception. Thirdly, these expressions enhance the manipulative potential of information, ensuring that political messages are delivered more effectively.

The findings of the research indicate that phraseological expressions in Azerbaijani political discourse are not merely artistic linguistic tools but also strategic communication instruments. In President Ilham Aliyev's Twitter posts, this rhetorical device is used effectively to influence public opinion and strengthen political messages. This study not only explains the functional role of phraseologisms in political discourse but also highlights their connection to information manipulation and public influence mechanisms.



**Keywords:** phraseological expressions, political discourse, manipulation, Twitter, Ilham Aliyev, public opinion, political rhetoric.

## АННОТАЦИЯ

## МАНИПУЛЯТИВНЫЙ ПОТЕНЦИАЛ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ (НА ОСНОВЕ ПУБЛИКАЦИЙ В TWITTER ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ) ИЛЬХАМА АЛИЕВА)

**Кёнюль Габибова**

Данное исследование рассматривает манипулятивный потенциал фразеологических выражений в азербайджанском политическом дискурсе и стремится определить их роль в политической риторике. В частности, в работе анализируется использование фразеологизмов в публикациях в Twitter Президента Ильхама Алиева, оценивается их влияние на общественное мнение и коммуникативные функции. Актуальность данного исследования связана с трансформацией социальных сетей, в частности Twitter, в мощные инструменты коммуникации в современном политическом дискурсе.

Методологическая основа исследования базируется на описательно-аналитическом и дискурсивном анализе. Анализ официальных выступлений и Twitter-публикаций Ильхама Алиева выявил, что фразеологические выражения выполняют несколько ключевых функций в его политической риторике. Во-первых, они направляют общественные эмоции, подчеркивая национальные и моральные ценности, а также усиливая патриотические настроения. Во-вторых, они используются как инструмент иронии и сарказма, направленного на оппонентов, критикуя аргументы политических противников и формируя общественное восприятие. В-третьих, эти выражения усиливают манипулятивный потенциал информации, обеспечивая более эффективную передачу политических сообщений.

Результаты исследования показывают, что фразеологические выражения в азербайджанском политическом дискурсе являются не просто художественными языковыми средствами, но и стратегическими инструментами коммуникации. В публикациях Президента Ильхама Алиева в Twitter этот риторический прием эффективно используется для влияния на общественное мнение и укрепления политических посланий. Данное исследование не только объясняет функциональную роль фразеологизмов в политическом дискурсе, но и подчеркивает их связь с манипуляцией информацией и механизмами общественного воздействия.

**Ключевые слова:** фразеологические выражения, политический дискурс, манипуляция, Twitter, Ильхам Алиев, общественное мнение, политическая риторика.